Yıl/Year:2025, Cilt/Volume:4, Sayı/Issue:2

# Hüseyn Razi Yaradıcılığında Ədəbi Şəxsiyyətlərə Poetik Ehtiram

## Poetic Respect for Literary Figures in the Work of Huseyn Razi

Zaman ABBASLI
ORCID: 0009-0006-0354-1218

DOI:10.5281/zenodo.17956362

## ÖZET

Azərbaycan ədəbiyyatının XX əsr mərhələsində mühüm yer tutan Hüseyn Razi zəngin yaradıcılıq irsi, çoxşaxəli ədəbi fəaliyyəti və yüksək vətəndaşlıq mövqeyi ilə tanınan nadir şəxsiyyətlərdəndir. Şair, nasir, dramaturq və publisist kimi fəaliyyət göstərən Razi, həm ədəbi mühitin formalaşmasında, həm də yeni istedadların yetişməsində mühüm rol oynamışdır. Onun poeziyası dərin milli ruh, vətənpərvərlik, mənəvi dəyərlərə sədaqət və sənətə sevgi ilə yoğrulmuşdur. Hüseyn Razi həm klassik, həm də çağdaş Azərbaycan ədəbiyyatının ənənələrini uğurla birləşdirərək yaradıcılığında novatorluq meylləri nümayiş etdirmiş, dini, fəlsəfi və vətənpərvərlik mövzularına geniş yer vermişdir. Xüsusilə böyük ədəbi şəxsiyyətlərə ithaf etdiyi şeirlər onun sənətkar həmrəyliyini, milli kimliyə və mənəvi irsə ehtiramını ifadə edir. H.Razinin əsərləri təkcə bədii-estetik baxımdan deyil, həm də milli-mənəvi özünüdərk və ədəbi düşüncənin inkişafı baxımından Azərbaycan ədəbiyyatında mühüm mərhələ təşkil edir.

**Anahtar Kelimeler:** Ədəbi Mirasa Hörmət, Hüseyn Razi, Şairlərə Həsr Poetikası.

## ABSTRACT

In the context of twentieth-century Azerbaijani literature, Huseyn Razi occupies a significant place as a rare and distinguished figure known for his rich creative legacy, multifaceted literary activity, and strong civic stance. As a poet, prose writer, playwright, and publicist, Razi played an essential role both in shaping the literary environment and in nurturing new talents. His poetry is imbued with a profound national spirit, patriotism, fidelity to moral values, and a sincere love for art. By harmoniously synthesizing the traditions of classical and modern Azerbaijani literature, Huseyn Razi demonstrated innovative tendencies in his creative work, frequently addressing religious, philosophical, and patriotic themes. Particularly noteworthy are his poems dedicated to prominent literary figures, which reflect his artistic solidarity, respect for national identity, and reverence for spiritual heritage. The works of H. Razi are significant not only from an aesthetic and artistic perspective but also as a vital stage in the development of national self-awareness and literary thought in Azerbaijani literature.

**Keywords:** Respect for Literary Heritage, Huseyn Razi, Poetics of Dedication to Poets.

İlgili Yazar: Zaman ABBASLI
Ünvan: Öğretim Görevlisi
Kurum Bilgileri: Millî Savunma Üniversitesi
Nahçıvan Harb Okulu
E- mail: abbaslizaman7@gmail.com

Başvuru Tarihi/Received: 09.07.2025
Kabul Tarihi/Accepted: 18.11.2025

**GİRİŞ**

1924-cü il oktyabrın 17-də Ordubad rayonunun Dəstə kəndində anadan olan Hüseyn Razi Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan şair və jurnalistlərdəndir. O, ilkin təhsilini doğma kəndində almış, daha sonra müəllim kimi fəaliyyət göstərmişdir. 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsini bitirən H. Razi "Şərq qapısı" qəzetində uzun illər çalışaraq publisistik və bədii yaradıcılığını inkişaf etdirmişdir.

Şair, nasir, dramaturq, publisist kimi tanınan H. Razinin 14 kitabı çap olunmuş, yüzlərlə ədəbi-tənqidi və publisistik məqalələri müxtəlif mətbuat orqanlarında dərc olunmuş, 6 pyesi tamaşaya qoyulmuşdur. O, bir çox şair və yazıçının üzə çıxarılması, istiqamətləndirilməsi və ədəbi mühitdə parlamasında mühüm rol oynamış, akademik İsa Həbibbəylinin də qeyd etdiyi kimi "Naxçıvanda yaşayıb-yaradan yazıçı və şairlər "Şərq qapısı" qəzetində və Hüseyn Razi ədəbi məktəbində yetişib formalaşmışlar" (Həbibbəyli, 2015, s. 451).

Şairin ədəbi şəxsiyyətlərə yazdığı şeirlərə başlamazdan əvvəl "Məkanın pak ürəkləndir" şeiri Məhəmməd (s.a.v) peyğəmbərin ali şəxsiyyətinə dair poetik ifadələrlə aşağıdakı kimi söyləmişdir.

Sözündən, hikmətindən biz qürur duymalıyıq sonsuz,
Ürəkdə sönməz, atəşdir bu hörmət, ya Rəsullah!
Bu gündə sarsılır düşmən Əlinin Zülfüqarından,
Sınaqlarda bir örnəkdir bu həzrət, ya Rəsullah! (Razi, 2011, s. 162-163).

H. Razi dini poeziya janrında və ya dini ruhda yazdığı şeirlər ənənə və novatorluğun üzvi sintezinden güclü çağdaşlıq duyğusuna malikdir. Şairin yaradıcılığını müəyyən dövrlərində sevdiyi şairlərin əsərlərindən, şeirlərindən bəhrələnmiş və onlardan təsirlənərək yaradıcılığını daha da zənginləşdirmişdir. H. Razi ayrı-ayrı yazarlara həsr ettiyi şeirlər, məhz bu hörmət və ehtiramın nəticəsidir.

Hüseyn Razi Azərbaycan aşıq şeirinin ən böyük nümayəndələrindən biri olan Dədə Ələsgərə 1976-ci ildə "Ələsgər" şeirini yazmış, şeirində Aşıq Ələsgər, Nəsimi, Nizami, Nəimi, Vaqifin və s. görkəmli şəxsiyyətlərin adını çəkməsi, və Aşıq Ələsgərdə öz şeirlərində Azərbaycanın qabaqcıl sənətkarlarına şeirlər yazması və onların bu şeirlərə "ayə məndədi" cavab yazması heç təsədüfi deyildir.

Sözlə sığal verdi gəlinə, qıza,
Döndü dəli Kürə, coşqun Araza.
Vurub tazənini sədəfli saza,
Aşıqlar ustadı oldu Ələsgər (Razi, 2011, s.110).

AMEA əməkdaşı, professor Qəzənfər Paşayev öz məqaləsində Aşıq poeziyası müəyyən spesifik xususiyyətlərilə seçilən orjinal və bənzərsiz bir yaradıcılıqdır. Öz axar-baxarı olan, dərin elmi biliyə söykənən sənət abidəsi, Prof. Dr. Məhərrəm Qasımlı'nın göstərdiyi kimi, dilimizin və ruhumuzun qərarlaşdığı möhtəşəm fəlsəfi sistemdir. Aşıq poeziyası Azərbaycan ədəbiyyat tarixi üçün çox mühüm yer tutur. Hüseyn Razi "Aşıqların Bəhsi" şeirini 1986- ci ildə qələmə almış və bizim üçün nə qədər vacib olduğunu vurğulamışdır (Paşayev, 2008, s.7).

Yığıldı məclisə bir gün aşıqlar,
Gəldi ustad Alı, Ələsgər dədə,

Bəhsləşib, deyişib onlar o ki, var,
Çalışıb çağırdılar müsabiqədə (Razi, 2011, s.182-183).

**GELİŞME**

Naxçıvanın ictimai-siyasi və mədəni həyatında elə bir məqam tapılmaz ki, H. Razi qələmi ilə ictimailəşməsin. Yüksək istedad və zəngin dünya görüşündən irəli gəlir ki, Razi 1973-ci ildə yazdığı "Əlincə Qayaları" adlı şeirində qəhrəmanlıq dastanı kimi yayılan Əlincə qalasının müdafiəsinə toxunmuşdur. Bu şeirdə Azərbaycan ədəbiyyatının misilsiz əsərlər bəxş edən F. Nəimi nə İ. Nəsimi qəhrəmanlığına vurğu etmişdir dahi şair.

Bu qalanın vüqarında
Heykəlləşən Nəiminin,
Nəsimini görürəm mən.
Elə bil ki, qayalardan səslər gəlir.
Hay verirsən, dərələrdən haray qalxır (Razi, 2011, s. 50-51).

Xan Arazın sahilində, doğma Naxçıvanda yaşayan Məmməd Arazın yaradıcılığı qələm dostu H. Razi tərəfindən yüksək qiymətləndirilmişdir. Naxçıvan ədəbi mühitində yaşayıb, yaradan şairlər Məmməd Araz qələmindən yüksək səviyyədə təsirlənmişdir. Məmməd Araz şeirlərindən təsirlənən bir sənətkarımızda məhz Hüseyn Razidir. H. Razi 1985- ci ildə "Məmməd Araz" şeirini qələmə almışdır.

Buz ürəklər ağrı, acı bilən deyil,
Cilovsuz at e`tibarlı köhlən deyil,
Bərk ayakta sahibinə vəfa qılmaz.
Qeyrət namərd bazarına gələn deyil,
Gəl əyləş, dincələk bir az. Məmməd Araz!

Məhəmməd Füzuli Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ədəbiyyatına mühüm təsir göstərən görkəmli sənətkardır. Hərtərəfli biliyə malik olan mütəfəkkir kimi onun həyata, insana dərin məhəbbət aşılayan və daim gözəllik duyğusu ilə, ülvi ideallarla yaşamağa səsləyən çoxcəhətli bədii-fəlsəfi irsi Azərbaycan xalqının bəşər mədəniyyəti sərvətinə bəxş etdiyi əvəzsiz mənəvi xəzinələrdəndir. Hüseyn Raziyə görə istedad bir qanaddırsa, zəhməd də bir qanaddır. M. Füzuli anadili poeziyanın mükəmməl nümunələrini yaratmış, Azərbaycan bədii dilini daha da təkminləşdirərək zirvəyə yüksəltmişdir. Onun parlaq dühasının təcəssümü olan və bu gün də bəyənilərək oxunan əsərləri yazıldığı ilk günlərdən geniş coğrafiyada yayılmış və Füzuliyə böyük şöhrət qazandırmışdır. M. Füzuli istedadlı nümayəndələri ilə bilinən bütöv bir əbədi məktəb formalaşdırmışdır. Öz ziyalılarından başlayaraq, sonraki dövrlərdə Füzuli ənənələrinin davamçısı olmuş Hüseyn Razi kimi görkəmli sənətkarlar bu nəhəng söz ustasının adını hər zaman ehtiramla yad etmişdir.

Hüseyn Razi Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinin bəxş ettiyi böyük ədəbi şəxsiyyətlərindən biri olan görkəmli şair, mütəfəkkir və ölməz əsərləri ilə dünyada şöhrət qazanmış M. Füzuli

haqqında şeirlərində bəhs etmişdir. Azərbaycan mədəniyyətinin və ədəbiyyatının tarixi iftixarı olan Məhəmməd Füzuli haqqında Hüseyn Razi öz dərin ədəbi hörmətini "Şe`r" şeirində ifadə etmişdir.

Şe`r arzulardan bir dünya qurub,
Dövrün siqlətini çiynində saxlar.
Bir gün Füzulilər, Sabirlər durub
Şe`rin əhvalını soruşacaqlar (Razi, 1996, s.49-50).

Dahi Azərbaycan şairi Məhəmməd Fuzuli əsərlərində oxucusunu bədii sözün qüdrətilə sehirləyərək onları düşündürməyə, öz mənliyini, dünyanı, həyat gözəlliklərini dərk etməyə, məhəbbətə, dostluğa və sülhə çağırır. M.Füzuli Şərqdə məşhur və önəmli olduğu qədər qərb mədəniyyətində də ona, şəxsiyyətinə və ədəbi yaradıcılığına önəm verilmişdir. Bu gün Qərb üniversitetlərindən hansında Türkologiya, Şərq dilləri və ya Şərqşünaslıq fakültələri varsa, heç şübhəsiz orada Füzuli haqqında ayrıca bir dərs keçirilir. M. Füzulinin vəfat etməsindən yüz illər keçməsinə baxmayaraq haqqında ya dissertasiya işi yazılır ya da əsərləri dünya ədəbiyyatının tanınmış yazarları olan Dostyevski, Şekspir, Puşkin, Con Don kimi simalar ilə müqayisə edilir. Füzuli Azərbaycan xalqı kimi əbədidir. Hüseyn Razi Azərbaycan ədəbiyyatının klassiklərini unutmamış, onların yaratdığı ədəbi məktəbin gələcək nəslin inkişafındaki əhəmiyyətini daim diqqətdə saxlamışdır. Onun klassik irsimizin görkəmli nümayəndələrindən biri olan M. Füzuli haqqında yazdığı "Füzuli" şeiri bu nəsildəndir.

Yaşadı, can verdi qəriblər kimi,
Vətən həsrətiylə alışdı, yandı.
Ötdü, şikayətli nəğmələriylə
Baxdı oyanmadı, ellər oyandı.
Illər qoşun çəkdi, dolandı gərdiş,
əngin üfüqlər tək möhtəşəm, geniş
bir sənət taxtına qalxdı Füzuli (Razi, 1974, s.80-81).

1989-ci ilin 31 dekabrnda sərhəd dirəklərinin sökülməsindən sonra Cənubi Azərbaycana səfər edən H.Razi şeirində bu torpağlarda qəhrəmancasına savaşmış, mübarizə göstərmiş Babək, Koroğlu, Teymur, Xətai, Xiyabani və s. qəhrəmanların və Azərbaycanın tarixi geçmişini öz xəyalında canlandıran şair "Culfadan Təbrizə" şeirində Füzulinin ahından, Nəsiminin faciəsindən, iki qardaşın ayrı düşməsindən qəmginlənən dağların kədərini yada salmaqla hər daşına, torpağına vurğun olduğu Azərbaycanına dərin sevgisini bəyan edir.

Hicran atəşinin hərarətindən,
Zirvələr üstündə qar dənərləşib.
Bəlkə də Nəsimi soyulan gündən,
Bu dağlar bozarıb mükəddərləşib (Razi, 1996, s.111-112).

Nizami Gəncəvi Azərbaycanın dünyaya bəxş etdiyi ən böyük şəxsiyyətlərdən biridir. Nizami yaradıcılığı bütün dünyada şərqşünaslığın əsas mövzusu olmuş, diqqətlə öyrənilmiş, yüksək qiymətləndirilmişdir. Vətənpərvər şairin əsərlərini bütün dünyaya sevdirən yüksək məziyyət böyük

humanizm, insanın şərəfi naminə qəhrəmanlıq, pak məhəbbət, dostluq və beynəlmiləlçilik motivləridir. Hüseyn Razi "Üzü Dönmür" şeirində dahi sənətkar Nizami Gəncəvinin xəmsəsindən bəhs edir (Əliyeva, 2021, s.99).

Ürəklərdə heykəlləşən müqəddəslər
Əsrlərin səmasında ən parlaq ulduza dönür.
Şeyx Nizami şö`lə çəkir əsrlərdə hücrələrdə -
Bağlı qalan «Xəmsə»sindən. – Nizami Gəncəvi Azərbaycanda döğulub öz xalqının, öz vətəninin poeziyasını yaratsa da, sənətinin zənginliyi və dərin mündəricəsinə görə bəşəri şairdir.

Cənubi Azərbaycan deyildiyi zaman hərkəsin ilk ağlına gəldiyi şair M. H. Şəhriyar olur, hər bir misrasından Cavanşirin, Səttərxanın, Xiyabaninin, nərəsi duyulan Bakı, Gəncə, Təbriz, Naxçıvanın birləşərək Şəhriyarın Səbuhinin sözləri ilə xalqın məlhəm olduğu şeirdə birlik və bərabərliyə çağırış böyük sənətkarlıqla əks olunmuşdur. H. Razi 1965-ci ildə yazdığı "Şəhriyarla Söhbət" şeiri vətəninə olan sevgisini, Azərbaycan ədəbiiyatında, mədəniyyətində, doğma Şuşamızda hətta ictimai həyatında da dərin izlər salmış Xurşudbani Nətəvan, Məhsəti Gəncəvi unudulmamış, o taylı-bu taylı Azərbaycanın hər qarışına yüksək məhəbbətin izhar olunduğu şeirdə ifadə edir.

Şeyx Nizami Gəncədən, Xəqani Təbrizdən baxıb
Sanki bir səslə deyirlər ki, "İlahi Ələman"!
Torpağın qəlbində çağlar atəşim, atəşlərim,
Od-alov əmmiş döşümdən yüz sənətkar, qəhrəman (Razi, 2011, s. 106-108).

"Mirzə Cəlil sağ olsaydı" məqaləsində C. Məmmədquluzadə ilə xəyali görüşlərin təsvir edən Razi, Mirzə Cəlilin görmək istədiyi tərəqqiyi Nazlıların, Novruzəlilərin, Zeynəblərin yüksəlişi fonunda təqdim edərək köhnəliklə yenliyi, dünənlə bugünü, yeniliklə inkişafı ustalıqla qarşılaşdırır. Gənclərin müxtəlif təhsil ocaqlarında oxuması, qadınların kişilərlə eyni və ya müxtəlif iş yerlərində işləməsi Naxçıvanın sürətli inkişafını M. Cəlili sevindirdiyi kimi hüseyn Razinidə qürurlandırır. Lakin Mirzə Cəlil ilə xəyalı görüşü bitmir. Biz onunla hər gün rastlaşırız. Qoca "Molla Nəsrəddinin" arzularının həqiqət olduğunu görür, böyük iftixarla deyirik; kaş Mirzə Cəlil sağ olsaydı[1].

Görkəmli Şair Hüseyn Razi Naxçıvan ədəbi şəxsiyyətlərinin yaradıcılığından çox təsirlənmiş və bunun nəticəsində ədəbi şəxsiyyətlərə bir neçə şeirlər yazmışdır. C. Məmmədquluzadənin əsərlərindən mütəəsir olmuş və 1967-ci ildə "Böyük Ustad", "Novruzəli" şeirlərini yazması ilə öz doğma hislərini ifadə etmişdir.

Bugün arzunla, eşqinlə sevincimsən, qürurumsan,
Sözümsən, iftixarımsan, sənət mülkündə nurumsan.
Ey ustad, rahat ol hər vaxt məzari-gülməkanında,
Adın pir parlaq ulduzdur işıqlar kəhkəşanında (Razi, 2011, s. 102-103).

Mirzə Cəlil Naxçıvan ədəbiyyatına böyük dəyər qazandırmış, Azərbaycan tənqidi-realist satirik ədəbiyyatının görkəmli yaradıcısına "Naxçıvandadır" şeirində öz ülvi duyğularını dilə gətirmişdir.

[1] Şərq qapısı qəzeti, Arxiv, Naxçıvan, 1968, 12 yanvar G.T 24.06.2025

Yaşı bilinməyir uca dağların,
Loğman qüdrəti var buz bulaqların.
Mirzə Cəlil kimi bir sənətkarın
Buqarı, nəfəsi Naxçıvandadır (Razi, 1974, s.59-60).

H. Razi Azərbaycan və Naxçıvan ədəbiyyatının nümayəndəsi, poeziya və dramaturgiyada möhtəşəm əsərlər yaradan, böyük şəxsiyyət, mütəfəkkir sənətkar Hüseyn Cavidə olan dərin məhəbbəti bir çox şeirlərində özünü əks etdirmişdir. Hüseyn Cavidin ölməz xatirəsinə 1984-ci ildə yazdığı "Ölməzdir" şeiri ədəbi şəxsiyyətin xatirəsinə böyük töhfədir.

Çəkildi haqlı sözü, şeiri duymayan kəslər,
Önündə diz çökərək, cayiz oldu iblislər.
Bugün onun sənət eşqi günəş kimi parlar,
Cəlalın, adının fövqəladə bir yeri var (Razi, 1996, s.65-66).

Hər bir Azərbaycanlının qəlbində yeri başqadır Qarabağın, Razi Qarabağın işğal altından azad olmasını çox istəyirdi və inanırdı ki yaxın gələcəkdə biz öz doğma yurdumuza qayıdacağıq. Şeirində dediyi kimi "Hər kəndi bir ordudur" Azərbaycanın. 1988-ci ildə yazdığı "Qarabağdadır" şeiri C.Cabbarlıdan, Səiddən, Xandan və Vaqifdən bəhs etmişdir.

Məğrur babaların dağ yaddaşları,
Nakam nənələrin məzar daşları.
Mələk gözəllərin gül baxışları,
Ruhu müqəddəslər Qarabağdadır (Razi, 1996, s. 11-12).

Hüseyn Razi şeirlərində Xalq şairi X.R.Ulutürkü xüsusilə qeyd etmək olar. H. Razi ilə X. Rzanı sıx dostluq telləri bağlayırdı. Ulutürkün milli idealında Azərbaycançılıq mühüm yer tuturdu. Onun poeziyasının kökü, mayası Vətən eşqi, torpaq və dünya ilə bağlıdır. Xəlil Rza Ulutürk Azərbaycan dilinin saflığı, əcnəbi dilin təsirinə məruz qalmaması üçün özünəməxsus mübarizə yolu seçmişdir. Azərbaycan dilinin inkişafı üçün göstərdiyi səylər diqqətdən kənarda qala bilməz. X. R. Ulutürk "Qədim diyarın tərənnümçüsü" məqaləsində belə ifadə edir: "İncə poetik eyhamlar, işarələr, mətləbin həm birbaşa, həm də dolayı ifadə tərzi onun poeziyasına qanad gətirir". Hüseyn Razi görkəmli şair Xəlil Rza üçün "Yavaş-Yavaş" şeirini 1986-cı ildə yazmış və şairin vətən üçün çəkdiyi o keşməkeşli yollara ışıq tutmuşdur. H. Razinin poeziyası daxili enerjiyə, ilham yanğısına malikdir. İlham isə dil sərrastlığı üçün başlıca təminatdır.

Qoca dünya xali deyil, gülür bir gün hər ağlayan,
Əvvəl axır iflic olur yeri, göyü qucaqlayan.
Suni, saxta, etibarsız dayaqlara bel bağlayan,
Böyüklüyün cılızlaşıb kiçilməsi yavaş-yavaş (Razi, 2011, s.71-72).

Onun ədəbi-tənqidi məqalələri içərisində Səməd Vurğun haqqında yazılanlar xususilə diqqət çəkir. "Sevimli xalq şairi", "Şair və ədəbi gənclik", "Böyük poeziya ustadı" kimi yazılarında Səməd Vurğun yaradıcılığı müxtəlif aspektlərdən araşdırılmış, həyat və yaradıcılığının əsas məqamları oxucularına təqdim etmişdir. "Naxçıvanın Səməd Vurğunu" hesab edilən şair, Səməd Vurğun kimi Yazıçılar Birliyinin sədri

olmasa da, katibi də ola bilərdi, istəmədi (Razi, 1974, 1998). Səməd Vurğunun “Azərbaycan” şeirində şairin səmimiliyi, vətən sevgisini ən mühüm göstəricilərdən biri hesab edən Hüseyn Razi, “El bilir ki, sən mənimsən” misrası ilə başlamış “Qoca şərqin qapısısan” misrasına qədər hər misra və sözdə siyasi-ideoloji məna əks olunur. H. Razi “Səni Ellər Xatırlayır” şeirini 1986-cı ildə Səməd Vurğuna həsr etməsi Azərbaycan xalqının görkəmli şairə olan məhəbbətinin göstəricisidir.

Misraları gah qılıncdır, gah da kövrək bir saz kimi.
Vurquların, sorğuların nigarandır Araz kimi.
Nidaların, sualların dəli bir etiraz kimi,
Sərrast dəyir bu gün yenə nişanlanmış hədəfinə,
Şair, səni bizim ellər xatırlayır dönə-dönə (Razi, 2011, s.105-106).

Naxçıvanın MR Ordubad rayonun fəxri, böyük elm xadimi akademik Yusif Məmmədəliyev Azərbaycanda neft kimyasının banisi, dünya şöhrətli Azərbaycanlı alim ikinci dünya müharibəsinin ağır dövründə yüksək oktanlı benzin ixtira etmiş və aviasiyamızın yüksək oktanlı yanacaqla təmin edilməsinə kömək etmişdir. Hüseyn Razi həmyerlisi olan akademik Yusif Məmmədəliyevə 1987-ci ildə poema ithaf etmişdir. Poeamanın içərisində iyirmi iki şeir vardır. Poemanın girişində verilmiş şeir:

Üfüqdən boylanır yerə, dənizə,
Qururu tükənməz, qəlbi genişdir.
Adını ölməzlik tariximizə
Xalqımızın məhəbbəti həkk eləmişdir (Razi, 1996, s.186).

Ədəbiyyata həyat fənni kimi baxan H. Razi bir vətəndaş kimi Naxçıvan ədəbi mühitinin formalaşmasına, yeni yazıçıların, şairlərin ədəbiyyata gəlişinə xususi həssaslıqla yanaşmışdır. Rüstəm Behrudi və Hüseyn Razi aktual hadisələrlə bağlı şeirlərində tarixi perspektivə malikdirlər. Hər iki görkəmli sənətkar şeirlərində bugünkü hadisələrin tarixi dərinliyə malik olduğunu vurğulayırlar.

Şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü Rüstəm Behrudi, Naxçıvanın görkəmli şairi Hüseyn Razi haqqında; “*Hüseyn Razi Naxçıvan torpağının 20-ci yüzilliyin sonunda ədəbiyyatımıza verdiyi böyük sənətkərlardan biridir. Naxçıvan ədəbi mühitindən çıxan elə bir şair yoxdur ki, Hüseyn Razi şeirlərindən təsirlənməsin. Hüseyn Razi həmişə sözü üzə şax deyən, sözü ucalığa qaldıran, vəfatına qədər ədəbiyyata mərdi-mərdanə xidmət edən bir sənətkar idi”.* Şair Rüstəm Behrudi H.Razi haqqında məqaləsində onunla ilk görüşünü xatırlayır, onun şeirlərinin dərc olunmasına göstərdiyi xeyirxah əməlini qeyd edərək yazır: *“H.Razini ədəbiyyat biliciləri “Naxçıvanın Səməd Vurğunu” adlandırırdılar.* XX əsr Naxçıvan ədəbi-mədəni mühitinin görkəmli nümayəndələrindən olan Hüseyn Razi yarım əsrə yaxın ədəbi, publisistik fəaliyyəti müddətində qələmə aldığı bədii əsərləri, məqalələrində dövrünün ən mühüm mətləblərini ustalıqla işıqlandırmış, Vətəninə, xalqına olan dərin sevgisini ən səmimi duyğularla ifadə etmiş, gördüyü haqsızlıqlara qarşı barışmaz mövqe tutaraq, xalqına, ədəbiyyatımıza sədaqətlə xidmət göstərmişdir.

Hüseyn Razi Naxçıvanın mərd oğlu Rüstəm Behrudi üçün 1988-ci ildə “Hayqır” şeirini ithaf etmişdir.

Rol oynamağa yüz dəfə sən rənglənə bilsən,
Mütrüflük üçün təlxəyə hər gah dönə bilsən,

Alçaqlar üçün yüksələcəksən, enə bilsən,
Çirkabı təmiz sözlə ürəkdən yumaq olmur (Razi, 1996, s.92-93).

H. Razi təkcə Azərbaycan sənətkarlarına deyil, dost-qardaş Türkiyəli sənətkarlarına da şeirlər yazmışdır. “Mübariz şair”, “Azadlıq və sülh çarçısı” , “Sülh və demokratiya carçısı” (Nazım Hikmət), 1991-ci ildə qələmə aldığı “Ağrı dağı” şeirində Yunis İmrə və Dədə Qorqud kimi Türk dünyasının ədəbi şəxsiyyətlərinə yazmışdır.

Dədə Qorqud Boylarının özülü,
Yunis İmrə şeiri kimi düzülü.
Zirvələri butalanmış dağ gülü,
Sevgimizin alovunda boyanmış (Razi, 2011, s. 42).

Razinin ədəbi-tənqidi yazıları içərisində dünya ədəbiyyatı və yazıçıları haqqında məqalə və şeirləri mühüm yer tutur. Bunlara misal olaraq: A. S. Puşkin, A. Dante (Bəşəri duyğular şairin), “Şair və dramaturq” B. Canson, “Humanist yazıçı” C. London və s. kimi yazılarında dünya ədəbiyyatının bir sıra nümayəndəsinin həyat yolu və əsərləri haqqında və H. Razinin geniş dünya görüşünün və dünya xalqlarına olan sonsuz sevgisinin şahidi oluruq.

H. Razi sevdiyi şairlərə həsr ettiyi bir neçə şeirləri Azərbaycan və Naxçıvan ədəbiyyatını zənginləşdirmişdir. Şair 1998-ci il fevralın 27-də vəfat etmiş və doğma Dəstə kəndində dəfn olunmuşdur.

## SONUÇ

Azərbaycanın ədəbiyyat biliciləri Hüseyn Razini "Naxçıvanın Səməd Vurğunu" adlandırırdılar. Naxçıvan ədəbi mühitindən çıxan elə bir şair yoxdur ki, Razi qələmindən təsirlənməsin. H. Razi haqqında yazan müəlliflərin tərkibi elmi-ədəbi ictimaiyyətin müxtəlif təbəqələrini əhatə edir. Azərbaycan ədəbi mühitində də sevilən, qəbul edilən şair, nasir, dramaturq, publisist, Əməkdar incəsənət xadimi H. Razinin sağlığında on üç kitabı nəşr edilib. H. Razini XX əsr Naxçıvan ədəbi mühitinin ən tanınmış nümayəndələrindən biri kimi tanınmışdır. Azərbaycanın görkəmli qələm adamları onun haqqında yüksək fikirlər söyləyib, məqalələr dərc ediblər.

Şairin həyatı, ədəbi ictimai fəaliyyəti, şəxsiyyəti, yaradıcılığının ayr-ayrı mərhələləri və sənətkarlıq xususiyyətlərinə həsr olunmuş müxtəlif vaxtlarda yazılan xeyli məqalə və oçerklər vardır. Hüseyn Razi yaradıcılığını müəyyən dövrlərində sevdiyi şairlərin əsərlərindən, şeirlərindən bəhrələnmiş və onlardan təsirlənərək yaradıcılığını daha da zənginləşdirmişdir. Razi ayrı-ayrı yazarlara həsr ettiyi şeirlər, məhz bu hörmət və ehtiramın nəticəsidir. Hüseyn Razi Azərbaycan ədəbiyyatının tərəqqisində özünəməxsus rolu və xidməti olan, ədəbi yaradıcılığında öz sözü və dəst-xətti ilə seçilən sənətkardır. Şair Hüseyn Razinin ilk növbədə doğma yurdu Azərbaycanın hər daşına, torpağına, dağına, çayına, qalasına - bir sözlə hər zərrəsinə olan sonsuz sevginin şahidi oluruq. Məhz bu səbəbdən də Hüseyn Razi yaradıcılığının başlıca vəzifəsi, doğma yurdu bütün tərəfləri ilə layiqincə vəsf etmək və tanıtmaqdır. Razinin Azərbaycanın görkəmli sənətkarlarına sevgisi ilə aşıb-daşan duyğularının bədii əksi olan şeirləri məhz bu baxımdan əvəzolunmazdır. Şair oxucuların qəlbini titrətməyə və onların sevgisini qazanmağa nail olmuşdur. Xalqın sevgisini qazanmaq şərəfinə nail olmaq sənət adamının ən böyük uğurudur, xoşbəxtliyidir. Şairin yaradıcılığını hərtərəfli öyrənmək və tədqiq etməyə ehtiyac var. Ustat sənətkarımız Hüseyn Razinin şeirləri, ana torpağın ətriylə yoğrulan həmişəbahar poeziyasıdır. Bizə görə bu poeziya Azərbaycan şeirinin ən yaxşı nümunələrindən biridir.

## KAYNAKÇA


Aşıq ədəbiyyatı antologiyası. I cild. Aşıq poeziyası. (2017). *Aşıq ədəbiyyatı antologiyası. I cild. Aşıq poeziyası* (s. 7). Bakı: [Nəşriyyat adı yoxdur].

Əliyeva, Ə. (2021). *Hüseyn Razinin publisistikası*. Naxçıvan: Əcəmi.

Həbibbəyli, İ. (2015). *Nuhçıxandan–Naxçıvana*. Bakı: Elm və Təhsil.

Paşayev, Q. (2008). *Aşıq poeziyası*. Bakı: Nurlan.

Razi, H. (1974). *Həmişəbahar*. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı.

Razi, H. (1996). *Gözün aydın*. Bakı: Azərbaycan Nəşriyyatı.

Razi, H. (2011). *Ömür keçdi*. Bakı: Elm və Təhsil.

Yazarlar.az. (2021, 22 fevral). *Aşıq Ələsgər haqqında*. https://yazarlar.az/2021/02/22/asiq-%C9%99l%C9%99sg%C9%99r-haqqinda/ Giriş tarixi 24.06.2025